

## *BƏYALI TOKTOQULOV*
(БЕГАЛЫ ТОКТОГУЛОВ) –

*13 fevral 1994-cü ildə Narında doğulub.*
*Hüseyn Qarasayev adına Bişkek Humanitar*
*Universitetini Qırğız filologiyası ixtisası üzrə bitirib.*
*"Əsildar" adlı şeirlər kitabı gün üzü görüb.*
*Hazırda Qırğız radiosunda jurnalist,*
*Toktoqul Satılqanov adına litseydə*
*müəllim olaraq çalışır.*

## *QİYMƏTLİLƏR*

Bəyaz buludlardan süzülüb enib,
Yağış damlaları sel olub axır.
Sevgilim, bu yağış səni çox sevir,
Döyür pəncərəni, bax, qadan alım.

O nur damlaları külək çiləsin,
Dayanmasın yağış, durmadan yağsın;
Paklığı, saflığı sevən sevgilim,
Yağış toxununca üzün gül açsın.

Yağış, o qiymətlim səntək təmizdir,
Tanrı saf mələktək yaradıb onu.
Sən havanın, yerin çirkabını yu,
Bəlkə üzüntüdən biz də qurtulduq...

De, sizdən qiymətli nə var həyatda? –
Yağan narın yağış çölləri yuyub.
Yalvarıram, tez ol, gecikmə, başla,
Bəlkə də sevgilim xəyala dalıb...

## *ZAMANI GƏLSƏ*

O kimdi deyir ki, "dəyişmərəm mən"?
Pöhrələr böyüyüb çinara dönür.
Cavan ömrü bircə zərbəylə əyən,
baltalı əl, qanlı bıçaq görmüşük...

O kimdi deyir ki, "dəyişmərəm mən"?
Gün keçər, ən körpə ən qoca olar.
Əvvəli xoş, sonu qəmli ömür də,
Gün gəlincə, "Sağ ol" ilə ayrılar...

Xoşbəxt anlar sonsuz kimi görünər
Amma heyif olsun,
qırıla bilər...
Yer də öz oxundan sıyrılıb bir gün,
parçalanıb, minbir yerə bölünər.

Yüz il deyil, keçər saat, dəqiqə,
Günəşin işığı sozalıb, gedər.
Həyat vəfasızdır, fanidir elə,
Vaxt gələr canına susayıb, gedər...

Budur, zaman bir şərt kəsir, söylənir,
Bu gün varıq, sabah çətin var olluq...
Bəlkə də biz başqa Günəş altında
yabançıtək özgə yerdə doğulluq...

## *GÜCLÜ İNSAN*

Mən zamanla yarışan bir insanam,
Ədalətçün öz canımdan keçirəm;
Vaxt gələcək gedəcəm bu dünyadan,
Hələliksə öz qanımdan içirəm...

Bəli, gec-tez yox olacam, bilirəm,
Gec olacaq, tez olacaq, bilmərəm?
Mən gəzdiyim ədaləti bəlkə də,
Bir də, Tanrı dərgahında görərəm...

Mən güclüyəm!
Mən bu güclə yaşaram,
Hardan gəldim? İndi hara gedirəm?
Seçdiklərim doğrudurmu, həyatda?
Bəzirgantək gəlib, xoca gedirəm.

Yox olmayan qanadlarım var mənim,
"Qulam" deyib ürəyimi qanatma..!
Haqlıyam çox şeydə, varam hər yerdə,
Tanrı, məni balan bilib, bağışla...

(Çevirən: **Günel EYVAZLI**)

## *KEÇMİŞİN LENTLƏRİ*

Geriyə qayıtsam, üzümə baxma..!
Heç güvənmə mənə! Çox danışıram;
Sənli xatirələr dönsə torpağa,
Quru xəzəl kimi yanıb, kül ollam...

Bitişər yarası ürəyimizin,
Göz yaşı quruyub tezcə yox olar.
Keçmişdə çəkilən o şən şəkillər,
Unudulub, muncuq kimi dağılar.

Vaxt gələr, bir yerdə dura bilməzsən,
şəkilləri sonra yenə toplarsan.
Bax, o zaman axan göz yaşlarıyla,
Çox şeyləri yada salıb ağlarsan.

Mənim toprağımı öpərsən onda,
keçmişi film kimi seyr eləyərsən.
Yaşayıb həyatı qu quşu kimi,
"Olan oldu, keçən keçdi" deyərsən...

(Çevirən: *Dos.Dr.* **Pərvanə MƏMMƏDLİ**)